# Abbas Zamanov zirvəsi

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli ədəbiyyatşünas-alim, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Abbas Zamanovun anadan olmasının 110 illiyinə həsr edilmiş elmi sessiya keçirilib.



Sessiyanı AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açaraq bildirib ki, Abbas Zamanovun yubileyinin keçirilməsi ilə bağlı həm Humanitar Elmlər Bölməsinin, həm də institutun Elmi Şurasının qərarı var.

Abbas Zamanovun böyük tədqiqatçı, mükəmməl ədəbiyyat tarixçisi olduğunu deyən akademik vurğulayıb ki, onun Mirzə Ələkbər Sabir, Mirzə Cəlil haqqında yazdığı elmi əsərlər bu gün də istinad mənbəyidir: "Mənbəşünas alimdir, arxivlərdə işləyib, yazıçıların məzarını axtarıb tapıb. Namizədlik işinin yüksək səviyyədə olmasına görə birbaşa doktorluq dərəcəsi alıb. Onun yazılarında ideologiya yoxdur, sovet dövrünü təbliğ etməyib, vətəndaşlıq mövqeyi də çox güclüdür. Naxçıvan Muxtar Respublikasının Ermənistana verilməsi təklifinə çox sərt reaksiya verib, onun belə sərt cavabından sonra məsələ gündəlikdən çıxarılıb".

Akademik İsa Həbibbəyli yubilyarla bağlı xatirələrini də bölüşüb: "Abbas müəllim Naxçıvan Dövlət Universitetində mənə dərs deyib, onunla birlikdə teatra getmişik. Gənc alimlərə "Uğurlu yol" yazmaqdan zövq alırdı. Özü uşaq evində böyüməsinə baxmayaraq, çox iradəli, mövqeyindən dönməyən, məsuliyyətli və nikbin adam idi. Həmişə hal-əhval tutanda "Şikayətlənməyə əsas yoxdur" deyən Abbas müəllim vətəndaş alimliyinin brendi idi".

Akademik Rəfael Hüseynov "Azərbaycan diasporu quruculuğunda Abbas Zamanovun rolu" adlı məruzə edərək qeyd edib ki, müəllifi olduğu "Vaxtdan uca" kitabında üç şəxsiyyətin "necəsən?" sualına cavabını xüsusi vurğulayıb. Ərtoğrul Cavid "Dünənkindən pis, sabahkından yaxşı", Əkrəm Cəfər "Ürəyin istəyən kimi", Abbas Zamanov "Şikayətlənməyə əsas yoxdur" cavabını verirmiş.

Onun sözlərinə görə, Abbas müəllim çətin həyat yolu keçsə də, heç zaman şikayətlənməyib, gördüyü bütün işləri vicdanının hökmü ilə həyata keçirib. 1968-ci ildən Milli Azərbaycan Ədəbiyyatı Muzeyinə direktor təyin edilib və o illərdən, demək olar ki, diasporsayağı işlər görməyə başlayıb: "Cənubi Azərbaycan yazarları haqqında bilgilər paylaşırdı. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar arasında əlaqələrin qurulmasında iştirak edirdi. Böyük azərbaycançılar dəstəsi formalaşdırmışdı. Onun yaratdığı "Vətən" cəmiyyəti sonralar Diaspor Komitəsinin yaranmasına səbəb oldu".

Professor Qəzənfər Paşayev "Abbas Zamanov və beynəlxalq əlaqələr" mövzusunda məruzəsində vurğulayıb ki, Abbas müəllim böyük şəxsiyyət olub: "Ədəbi əlaqələr sərhəd bilmir, fədakar insanların sayəsində yaranır. Belə fədakarlardan biri də Abbas müəllimdir. O, təmənnasız təbliğatçı idi. Bir çox ədəbi əlaqələrin qurulmasında sistemli şəkildə məşğul olub. Mən xoşbəxtəm ki, onunla yaxşı münasibətim olub".

Sonra filologiya elmləri doktorları, professorlar Şirindil Alışanlı "Klassik ədəbi irs Abbas Zamanovun araşdırmalarında" və Tahirə Məmməd "Milli kimlik uğrunda ziyalı mübarizəsi" mövzularında məruzə ediblər.

Abbas Zamanovun nəvəsi, filologiya üzrə fəlsəfə doktoru, dosent Gülgün Əliyeva "Yaddaşlardan silinməyən alim" mövzusunda çıxış edərək, ailəsi adından elmi sessiyanın təşkilatçılarına və iştirakçılarına təşəkkürünü çatdırıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 7 oktyabr.- S.7.